*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2023, №2* *ISSN: 2664-5432*
*Səhifə: 62-77*
*http://doi.org/10.59849/2664-5432.2023.2.62*

**XAQANİ N. İSMAYIL***

# SUMERLƏR BİR QƏDİM ÖNTÜRK BOYUDUR

## XÜLASƏ

Məqalədə sumerlərin etnik kimliyi araşdırılaraq, onların qədim bir öntürk (prototürk) boyu olduğunu əsaslandırmaq üçün tarixşünaslıqda ilk dəfə ən müxtəlif səpgili elmi dəllillər ortaya qoyulur. Müəllif uzaq keçmişin bir sıra dünya alımları üçün yarıqaranlıq görünən və ya görüntülənən tarixi dönəminə imkan daxilində müxtəlif elm sahələrinin nəticələri olaraq əldə etdiyi tarixi, dilçilik, mifoloji, arxeoloji, antropoloji, genoloji və b. yönlərdən hərtərəfli elmi dəlillərlə aydınlıq gətirməyə çalışaraq özünün də gəldiyi, tarixşünaslıq üçün yeni, qaynaqlarla tam əsaslandırılmış elmi nəticələri təqdim edir. Araşdırmadan aydın olur ki, "Müjdə"dəki bilgilərin izi ilə aparılan axtarışlar və arxeoloji qazıntılar sayəsində tapılmış şumer mətnlərini araşdıran ilk şumeroloqların bu mixi mətnlərin türk dilinə yaxın bir dildə olduğunu və bu dilin daşıyıcılarının Turan bölgəsinə bağlı olduqlarını bildirdikləri halda, sonralar bu məsələ siyasiləşdirilərək Buxarest ravvini J.Halevi və ardıcılları tərəfindən yanlış yönə sürükləndiyindən həmin "elmi" xəttin fəsadları dünya akademik elminin bu mövzuda baxışlarını dalana dirəyərək, özü ilə qurama qaranlıqlar, yanlış sonuclar gətirməkdədir. Məqalədə tarixşünaslıq üçün ilk olaraq bir sıra Sumer toponim, antroponiminin, o sıradan Sumer, Kiş, Abram (İbrahim), Saray (Sara), Aran və b. sözlərin etimologiyası elmi şəkildə, dilçilik qanunauyunluqları ilə açıqlanaraq türk kökənli sözlər olduğu sübut edilir. Müəllif burada təqdim edilən dəlillərlə, "Sumer xalqının etnik kökü bilinməyən, tarixdə itmiş bir xalq" olduğu qənaətini öndə tutan sifarişli nəzəriyyəni nəinki elmi şəkildə təkzib edir, hətta Sumerlə birbaşa bağlı olan coğrafi adların və etnonimlərin bu gün də yaşadıldığı tarixi türk bölgələrini nişan verir. O, həmçinin, sumerlərin kökəni sualına da hərtərəfli dəlillərlə aydınlıq gətirərək türk xalqları sırasında həmin xalqın etnik kimliyini də göstərir. Araşdırmaçı dilçilik dəlilləri baxımından öz mövqeyini ortaya qoymaq üçün sumeroloqlar tərəfindən elmi dövriyyəyə daxil edilmiş sözlərdən istifadə edir. Bununla belə, məqalədə sumer mətnlərinin daha düzgün açılması və mətnlərin çağdaş dillərdə anlamının uğurla təqdim edilməsi üçün qədim dillər sırasında öntürk dillərinin öyrənilməsinin də zəruriliyini önə çəkir. Çünki müəllifə görə, hətta bu günkü türkdilli türkoloq özü də öntürk dillərini bilmədikcə, sözün tarixi mərhələlərini də bilməmiş olur və asurca, akkadca, yəhudicə və s. saydığı hər hansı bir sözün daha öncədən türk dillərindən alınaraq başqa dil yatağına keçirildiyindən xəbərsiz olduğu üçün nə o dönəmin Ön Asiya, nə Sumer etnik mənzərəsini, nə də oradakı hadisələrin mahiyyətini anlamamış olur. Bu kimi problemlərin həllinə imkan daxilində yardımçı olmaq üçün məqalə müəllifi mütəxəssislər tərəfindən *Sumer sözlüyü*nün, *Öntürk sözlü*yünün təkmilləşdirilməsini zəruri sayır.

**Açar sözlər:** *Sumer, Sum, Altay, Turan, qarapapaq, türk, öntürk, Tora, yəhudi, Ur, Uruk, Kut, Kiş, Abra, Abram, İbrahim, Saray, Sara, Aran.*

Yazının və yazılı mədəniyyətin yaradıcıları sayılan sumerlərin hansı xalqların əcdadları olduğu barədə mübahisələr elmi ictimaiyyət arasında hələ də davam etdiyindən biz də bu çox önəmli mövzuya müraciət edərək bir sıra yeni dəlillər işığında bu məsələyə aydınlıq gətirməyə çalışacağıq. Sumeroloqlar tərəfindən aparılan araşdırmaların yekunu olaraq göstərilən nəticələrdən biri budur ki, sumerlər nə sami, nə də hind-avropa xalqlarından heç biri deyildir. Tarixin başlanğıcını qoyan bu xalqın yazılı irsini dəyərləndirərək, dil özəllikləri baxımından iltisaqi (türk dilinə yaxın, biçimli, bitişkin) bir dildə danışdıqlarını irəli sürən ilk və sonrakı

* Xəzər Universiteti, Azərbaycan tarixi kafedrası (dissertant), "Tarix və Mədəniyyət" jurnalının baş redaktoru, *khaganiismail@gmail.com*

bir sıra sumeroloqlarla yanaşı, bu dili daşıyan xalqın indiki xalqlardan heç birinə aidiyyəti olmadığını, sumer dilinin də ölü dil olduğunu irəli sürənlər də vardır.

Xatırladaq ki, iltisaqi dillərə Turan etno-linqvistik dillər qrupu aiddir. Bəllidir ki, sonradan Ural-Altay dillər qrupu adlandırılan bu qrup dillərə türk, monqol, hunqar və fin dilləri daxildir.

Turan-Şumer etno-linqvistik bağlılığı ideyası 1870-ci illərə kimi şərqşünaslıq sahəsində çalışan alimlər tərəfindən qəbul olunaraq əhəmiyyətli dərəcədə inkişaf etdirildi [Azərtürk: 2002, s.14].

Sumeroloq M.İ.Çığ bu haqda yazır ki, 1800-cü illərin başlanğıcında mixi yazıların və Sumercənin öyrənilməsinə doğru bir sıra dünya elm adamları tərəfindən bir müddət girişildi... Oxunan asurca mətnlərin sətir aralarında başqa dildə yazılmış sətirlər var. Bu sətirlərin iskit və ya Turan dilində yazılmış olduğunu və yazının onlar tərəfindən icad edildiyini ilk dəfə mixi yazıları çözməyi bacaran Raulinson irəli sürmüşdür. 1869-cu ildə Jule Oppert bu dilə *sumercə* adı verdi və türk, fin və macar dillərinə qohum olduğunu bildirdi. 1887-ci ildə F.Lenorman (Francois Leonorment) də bu dili Ural-Altay dil qrupuna aid etdi. Buxarest ravvini J.Halevi (Joseph Halevy) isə bu görüşlərə tamamilə qarşı çıxaraq, bu dilin sami (akkad) din xadimlərinin özəl bir istəklə uydurduqları dil olduğunu bildirdi. Halevinin tezisinə başqaları da qatılmış, bu cür yanaşma 50 il hökm sürmüşdür [Çığ: 22.04.2020, s.15-16].

Görkəmli rus tarixçisi D.Reder isə bildirir ki, bu heyrətamiz, sirli yazıların süni dildə yazıldığını, o mətnlərdə gizli bilgilərin və dini gizlinlərin ifadə edildiyini düşünənlər olsa da, 1870-ci ildə Laqaş şəhəri xarabalıqlarında arxeoloji qazıntılar aparan fransız ekspedisiyasının aşkar etdiyi – şumerlərin özlərini xarakterik cizgiləri ilə təsvir edən heykəlləri və tərcüməsiz yazılmış şumer mətnləri bu düşüncənin yersiz olduğunu göstərdi. Tapılan yeni mətnlər sırasında müqavilələr, ərzaq siyahısı və b. işgüzar sənədlər də var idi ki, bunları məxfiləşdirməyin heç bir anlamı yoxdur.

D.Rederin araşdırmalarına görə, sumerlər xarici əlamətlərinə görə bölgəyə gəlmə xalqlardan idilər, samilər də güman ki, sumerlərlə eyni dönəmdə qərbdən (əsl yurdları olan Ərəb yarımadasından və Quzey Afrikadan hərəkət edərək Fələstin və Suriya üzərindən) İkiçayarası bölgəsinə gəlmişlər [Редер и др., 1970, с.92, 96].

D.Reder yazır: "Sumer dilini həm qrammatikasına, həm də leksik tərkibinə görə türk dilləri və qədim Hindistanın munda dili ilə müqayisə etmək cəhdləri vardı. Ancaq bütün bun-lar öncədən irəli sürülmüş hipotezlərdir." [Редер и др., 1970, с.96].

Qədim Hindistanın munda dillərinə gəldikdə, onların sırasında önəmlilərindən biri aqlütinativ (bitişkən) dil olan ***korku (kurku)*** dilidir ki, hal-hazırda bu dildə 574,5 min nəfər insan danışır. Göründüyü kimi, bu dilin adı da türkcədir: *Korku – qorxu* (*kurku – qurğu*). Başqa sözlə, həmin dil indi də Hindistanın Maharaştra əyalətinin şimal-qərbində və Madhya Pradeş əyalətinin cənubunda yaşayan qorxu (qurğu) xalqının dilidir [https://bigenc.ru/linguistics/text/2098073 [istinad tarixi: 20.08.2022].

Munda dil qrupunda ən çox saylı (6 milyon nəfərdən artıq) xalq olan munda xalqı özünü *santalı* adlandırır [https://ru.wikipedia.org/wiki/%D0%A1%D0%B0%D0%BD%D1%82%D0%B0%D0%BB%D1%8B [istinad tarixi: 20.08.2022].

Üstəlik, ilk sumeroloqlar tərəfindən munda dilinin şumer dili ilə bağlanma mülahizələrinə görə, o, iltisaqi dil sayılır. Başqa sözlə Sumer-türk bağını nə qədər sapdırmaq istəsələr də, yayındırılmaq istənildiyi yönlərdən də özünü göstərməkdədir.

Öncəliklə xatırladaq ki, sumerlərin türk olub-olmama məsələsini müzakirəyə belə buraxmaq istəməyən bəzi elmi çevrələr türklərin Aralıq dənizi yörəsi və Ön Asiyanın qərb ərazilərinə çox-çox sonralar gəldiyini, həmçinin türk yazılarının eramızın VI yüzilliyindən başlayaraq yarandığını, yəni türklərin qədim xalq olmadığını, qədim zamanlarda mədəniyyət yaratmadığını, o səbəbdən də sumerlərin öntürk xalqlarından biri olma ehtimalının mümkünsüzlüyünü düşünürlər. O səbəbdən də öncə türk xalqlarının Ön Asiyanın qərb bölgələrində ən qədim zamanlardan varlığı ilə bağlı bəzi dəlilləri təqdim edək.

Türkdilli xalq olan şumerlər e.ə. VII-VI minilliklərdə Mərkəzi Asiya və Altay dağlarının ətəklərindən Mesopotamiyaya gəlmiş, e.ə. III minilliyin əvvəllərində (Ön Asiyada) mixi yazı sistemini yaratmışlar [Ümumdünya tarixi, I, 2003, s.34-35].

"Turanlılar təxminən on-on iki min il bundan qabaq səfalı, bəhrəli Dəclə-Fərat çayları hövzəsində məskən salıb, ətraflarda yaşayan vəhşi tayfaların heyrətli nəzərləri altında dünya sivilizasiyasının yəhərini aldılar. Dünyada ulu bir mədəniyyətin məşəli alışdı. Bu işıq ehtiyacı daxildən gəlirdi. Və çox çəkmədi ki, qoca Asiyanın münbit torpaqlı hər guşəsində "işıq adaları" şölələndi". (İngilis alimləri S.Lloyd, Q.Çayld) [Nüvədili: 1997, s.15].

Aşağıdakı araşdırma sonucları isə həm də sumer dili ilə prototürk dillərinin bağlılığına dəlalət edir:

"Şumer dilinin turani dillərə bənzədiyi artıq qəbul edilmişdir. Şumerlər haqqında ən yeni və mötəbər əsər nəşr etdirən Voolley şumerlərin morfoloji cəhətdən "əski türkcəyə bənzər" bir dildə danışdıqlarını qəbul edir…

Şumerlər türkdür, şumerlərin türk olduğu məsələsinin çoxlu sübutları var; bizi bu qənaətə gətirən ən güclü sübut ikisidir: 1) dil sübutu; 2) geoloji və arxeoloji sübut". *(Türk alimi Ahmet Cavat)* [Alfabenin Menşei en eski Türk yazısıdır, 1933, s.10, 58-59; Nüvədili: 1997, s.16].

Aydınlaşdırılmalı prinsipal məsələlərdən biri də şumerlərlə türklərin antropoloji cizgilərinin uyğun gəlib-gəlməməsi məsələsidir. Ancaq bu yöndə də şumerlərlə türklər arasında bir problem yoxdur, əksinə, uyğunluq var: antropoloji tədqiqatlara görə, şumerlər böyük avropoid irqinin aralıqdənizi və balkan-qafqaz qollarına mənsub olmuşlar [БСЭ, т.29: 1978, c.518]. Türklər isə, əsasən, böyük avropoid irqinin aralıqdənizi qoluna aiddir [БСЭ, т.26: 1977, c.340].

Bundan başqa, əldə olunan (cüzi) linqvistik və toponimik məlumatlara görə, şumerlər həmin ölkənin *yerli* sakinləri olmamış və e.ö. V minillikdə (*başqa qaynaqlarda bu tarix daha qədimdir* – X.İ.) artıq oranı məskunlaşdırmışdılar **[**БСЭ, т.29: 1978, c. 518].

Bəlgələr türklərin Ön Asiya və Aralıq dənizi hövzəsinə yayılması və oturuşması prosesinin tarixin ən qədim zamanlarından baş verdiyini təsdiq edir. Dünya elmində türkoloqların yalnız bir qismi türklərin vətəninin Sayano-Altay bölgəsi olduğunu irəli sürür, başqaları isə onların buraya Ön Asiyadan gəldiklərini yazırlar. Örnək üçün akademik N.Y.Marr özünün "Aralıq dənizi hövzəsinə linqvistik gəzinti haqda" əsərində bildirir: "Türklər öncəliklə Aralıq dənizi hövzəsindən Asiyaya hərəkət etmişlər, əgər türklərin anayurdlarından ciddi danışılırsa, o halda o, Orta Asiya, ya Quzey Yakutiyada yox, Aralıq dənizi hövzəsindədir" [История Азербайджана с древнейших времён до 70-х гг. XIX в., 2009, c.160; Марр: 1934, c.55-56].

Başqa bir nüfuzlu akademik Yulius Nemetin gəldiyi qənaətə diqqət edək: "Dil bilgilərinə dayanaraq, türklərin ən əski yaşam yerlərini Batı Asiyada aramaq gərəkdir" [История Азербайджана с древнейших времён до 70-х гг. XIX в., 2009, c.160].

Şumer və türk dillərinin “qohumluğu” haqda ilk yazan avropalı – alman professoru Fritz Hommel Mesopotamiyada hakimiyyəti sürmüş kutilərin də türklərlə çox yaxın ilişgiləri olduğunu qeyd etmişdir; hətta kutilərin türk olmalarının mümkünlüyü haqda ilk yazan avropalı alim isə Ankara Universitəsinin Dillər və Tarixi Coğrafiya Fakültəsində Şumerologiya kafedrası yaradan Beno Landsberger idi. Qədim yunan-roma qaynaqlarında da (e.ö. V yüzilliyin yazarı olan Skilaks Kariyskinin və b.-nın əsərlərində) türklər haqqında Aralıq dənizi və Qaradənizyanı bölgələrdə yaşayan xalqlardan biri kimi söz açılır [История Азербайджана с древнейших времён до 70-х гг. XIX в.: 2009, с.162-163].

Türk xalqlarının tarixöncəsi dönəmlərdə Aralıq dənizi hövzəsindəki keçmişi ilə bağlı ünlü alim N.Marrdan bir iqtibasa da diqqət edək: “Türklər və Anadolu türk dili yunan və latın dillərinin yaranmasından öncə vardı. Türkləri qatmadan Aralıqdənizi tarixini çətin anlamaq olar.” [Азертюрк: т. I+II: 2019, с.1254].

“İlkin türklərin qədim izləri Mesopotamiyanın quzeyində, Azərbaycanda, Türkiyədə bilinməkdədir. Onlardan biri də Şartamxari mətninin 15-ci sətridir (üzü Babeldə – İraqda, Tell əl-Amarnedə – Misirdə və Boğazköydə – Türkiyədə qorunur).” [История Азербайджана с древнейших времён до 70-х гг. XIX в.: 2009, с.165-166]...

Arxeoloji materialların öyrənilməsi göstərir ki, İkiçayarasında meydana gəlmiş Helof, xüsusilə Übeyd, yaxud protoşumer (ilkin şumer) mədəniyyətinə oxşar əlamətlər Azərbaycanda da təmsil olunmuşdu. Ünsürləri Suriya, Anadolu, Ön Qafqaz, o cümlədən Azərbaycan, Türkmənistan səmtlərinə yayılmış Übeyd mədəniyyətinin ən səciyyəvi cəhətini dairəvi evlərin və naxışlı qab-qacağın geniş təmsil olunması təşkil edirdi. Həmin mədəniyyət növləri Azərbaycan ərazisində də yayılmışdı. İkiçayarasının (Mesopotamiya) Şimali Ubeyd mədəniyyəti üçün səciyyəvi olan (Eneolitin son mərhələsində) ölülərin gil küplərdə dəfn olunması mərasiminə Azərbaycanda Leylatəpə yaşayış məskənində də rast gəlinmişdir. Bu kimi faktlara əsaslanan uzmanlara görə, Übeyd – protoşumer etnik qruplarının e.ö. IV minillikdə Azərbaycanda məskunlaşdığını, Azərbaycan əhalisi ilə yaxın iqtisadi təmasda olduğunu söyləmək mümkündür [Azərbaycan tarixi, I: 2014, s.46, 73-74].

Azərbaycanda türklərin varlıq tarixinə aid ən önəmli dəlillərdən biri kimi aşağıdakı iqtibasdakı fakta da diqqət yetirək: “Qobustanda aparılan arxeoloji qazıntılar sonucunda ən mühüm tapıntılardan biri Mezolit dövrünə aid qəbir abidəsinin aşkara çıxarılmasıdır. Buradan 12 insan skeleti aşkar olunmuşdur. Firuz düşərgəsində tapılmış son Mezolit dövrü qəbirindəki insanların kəllə sümüklərinin antropoloji quruluşunun elmi tədqiqi zamanı müəyyən olunmuşdur ki, onlar çağdaş azərbaycanlıların ulu babalarıdır. Məhz bu insanlar Qobustanın maddi mədəniyyət abidələrini yaratmış və burada uzun sürə məskunlaşmışlar.” [Cəfərov: 1994, s.60-61]

Bu kimi tarixi faktlardan və görkəmli alim İ.M.Seçenova aid “Qafqazın ilk antropoloji insanları türklərdir” [Tağıoğlu, II: 2008, s.3] kimi elmi sonucdan aydın olur ki, Qafqazdan Doğu Aralıq dənizi yaxalarınadək həm ilk antropoloji insan, həm də ilk mədəni (yaradıcı-qurucu, tarix yaradan və b. bənzər anlamlarda) insan türklərdir...

Sumerlərin türk kökənli olduğunu qəbul etmək istəməyənlərin bir arqumenti də guya türk yazılarının eramızın V yüzilliyindən başlamasıdır. Bu yanlış fikri təkzib edərək, türklərin yazı mədəniyyəti və əlifbaları haqda gerçək bilgiləri diqqətə çatdıraq:

Rus, azərbaycanlı, qazax müəlliflərinin araşdırmalarına görə, Saymalı-Daş abidələri arasında e.ə. III minilliyə aid yazılar var, Tyan-Şan dağlarının Saymalı-Daş dərəsində tapılmış abidələrdəki rəsmlərin və yazıların bir qismi e.ö. I minilliyə, bir qismi e.ö. üçüncü, hətta dör-

düncü minilliyə aiddir... [Новгородова: 1988, №11, c.15-17; Шер: 1978, c.164-165; Sadıq: 2008, s.4]

İssıq kurqanında və Doğu Qazaxıstandakı sak (saq) məzarlığında tapılmış türk yazıları e.ö. VI yüzilliyə aid edilir. Suriyada hun sərkərdəsi xatirəsinə 395-ci ildə yapılmış yadasalma lövhəsi də türk run hərfləri ilə yazılmışdır. Bolqarıstanın Rumıniya sərhəddindəki Murfatlar monastırının 4-cü kilsəsinin şimal divarındakı run və kiril qarışığı qədim yazıların da türk kökənli olduğu sübut edilir [https://www.youtube. com/watch?v=KYbRveres0A, istinad tarixi: 21.08.2022].

Professor A.Klyosov da "avrosentrizm"ə söykənən akademik elmin türk xalqını "cavan" göstərməyə çalışdığını deyir. A.Klyosovun açıqlamasına görə, S.Malov hələ ötən əsrin ortalarında (1880-1957-ci illərdə yaşayıb –X.İ.) bildirirmiş: "Türk dilində yazılar V yüzilə gedir, ancaq daha qədim də ola bilər, sadəcə biz o yazıları oxuya bilmirik, yəni biliyimiz çatmır."

E.ö. 4 minillikdə Şumerlər də prototürk dillərinin birində danışmışlar [https://www. youtube.com/watch?v=ssRE0vHvgL4, istinad tarixi: 01.07.2021]...

Professor Elməddin Əlibəyzadə türk yazılarının tarixi haqda belə deyir: "Mixi" yazıların inkişafı "Qlozel" yazılarına, "İssıq" yazısına (və başqa yazılara), ondan da "Orxon-Yenisey"ə gəlib çıxınca 7- 8 min ilə yaxın və bəlkə də daha artıq bir yol keçmişdir" [Əlibəyzadə, I c.: 2007, s.255].

XX yüzilliyin başlanğıc dönəmində "Orxon-Yenisey" kitabələrini araşdıran ünlü türkoloq P.M.Melioranski heyrətlə demişdi: "Belə imlaya malik olan bir əlifba birdən-birə yaradılmır; onda, deməli, yazı türklərə nisbətən qədimlərdən artıq məlum idi və onlar bunun üzərində lazımi cidd-cəhdlə məşq etmişdilər... Ümid etmək olar ki, Qərbi Türküstanda, habelə bəlkə də Yeddisuda yeni bir yazı tapıldı, onda bu əlifbanın mənşəyi məsələsi daha artıq aydınlaşa bilər" [Мелиоранский: 1898, c.46-47].

Alimin uzaqgörənliyi illər sonra öz təsdiqini tapdı...

1924-cü ildə Fransanın *Vichy* bölgəsində bir mülk sahibinin öz ərazisində tapdığı, sonralar "Qlozel" muzeyində saxlanılan 3 min parçadan ibarət kitabələrin oxunması müşkülə çevrilmişdi. Miladdan öncə 2500-cü ilə aid edilən bu kitabələrin türk alimləri Xalıq Tarcan və Kazım Mirşan tərəfindən oxunuşu və "öntürkcə" olduğu təsdiqləndi. 1993-cü ildə Sarbonna Universitetində keçirilən "Əlifba yazının *başlanğıcı və* Qlozel kitabələri" adlı elmi konfransda kitabədəki hərflərlə bağlı illərlə davam edən dartışmalara son qoyuldu. Kitabələrdəki hərflərin qarşılıqlı olaraq tutuşdurulması, aralarındakı qabarıq bənzərliyin sübutu salondakı müxtəlif millətlərdən olan elm adamlarını inandırdı, verilən izahlar, gətirilən dəlil-sübutlar böyük alqışa səbəb oldu [Əlibəyzadə, I: 2007, s.260].

Bu haqda bilgilər, düşüncə və sonuclar Türkiyənin "Hürriyət" qəzetində "Dünyaya ayna" adı altındakı yazı ilə yayımlandı. Kitabələrdəki Saxsı lövhə üzərində yazı və "Maral rəsmi üzərində yazı", habelə "Orxon-Yenisey" və Qlozel əlifbalarının qarşılaşdırılmış sxemi də "Hürriyət" qəzetində oxucuların diqqətinə təqdim edildi ["Hürriyet": 1993, s.15].

1973-cü ildə Buryatiyada paleolit dönəminə aid yazılı Daş nüvə tapılmışdır. Akademik A.P.Okladnikov həmin daşın üstündəki yazının türk əlifbası olduğunu bildirmişdir. A.P.Okladnikov bu tapıntının həm tarixini, həm də türk əlifbası olduğunu düzgün müəyyənləşdirərək yazırdı: "1973-cü ildə Buryatiyada aparılan arxeoloji qazıntılar zamanı tapılmış paleolit dövrünə aid Daş nüvə-nukleus üzərində oxunan qədim türk əlifbasının aydın, dəqiq hərfləri bizi dərindən düşünməyə vadar edir. Bu dəqiq yazılar həm də qədim türk döyüşçülərinin

Mərkəzi Asiyada və Cənubi Sibirdən Dunay sahillərinədək qəhrəmanlıqlar göstərdikləri dövrlərdən xəbər verir.” [Sadıq: 2019, s.33].

Arxeoloqların bölgüsündə paleolit e.ö. III minilliyə düşür. A.P.Okladnikovun dediyinə görə, tapılmış yazılar e.ö. III-II minilliklərə aiddir. Bu da o deməkdir ki, təqribən 4000-5000 il bundan qabaq türk əlifbası mövcud olmuşdur.

Bir sıra dilçi uzmanların araşdırmalarına görə, Şumer və türk dillərinin qohumluğunu onların hər ikisinin biçimliliyindən (aqqlütinativlik) başqa, çoxlu faktlar da təsdiqləyir. Hər iki dildə qohumluq bildirən terminlərdən, bədən üzvlərinin adlarından, saylardan və b. - dan ibarət olan terminlər, habelə minə yaxın eyni sözlər var [Sadıq: 2020, s.23].

Şumer dilinin leksik fondundakı minə yaxın söz türk dillərində işlənmiş, ya da işlənməkdədir. Tanınmış dilçi alim M.Svadeş kompüter təhlili nəticəsində belə bir sonuca gəlmişdir ki, əgər iki ayrı dildə fonetik və anlam baxımından bənzəyən 100-dən çox söz varsa, onların müstəqil olaraq yaradılma ehtimalı milyonda birdir. Eyni qaydada qoşa kəlmələr də 7-dən çox olarsa, onda o iki dil arasında tarixi bir ilişgi var. Deməli, şumer və türk dillərində 1000-ə yaxın sözün fonetik və anlamca eyniliyi, yaxud oxşarlığı onların qohumluğunu təs- diqləyir [Sadıq: 2020, s.390].

Dünyanı yönəldən güc mərkəzinin təmsilçilərindən biri Devid Rokfellerin mediada yayımlanan ünlü açıqlamasında da bildirildiyi kimi, güc mərkəzlərinə bağlı tarixçilər də sumerlərin türklüyü haqda aydın sonuclar əldə edərək rəhbərliyə sunmuş, ancaq bu dünya ictimaiyyətindən gizlədilmişdir. Həmin açıqlamada “bu günə qədər çözülə bilən 1000 civarda sumercə sözdən” başqa, “Ayağını yerə bərk bas”, “Dadlı söz ilanı dəliyindən çıxarar”, “Sel kimi silib-süpürmək”, “Yağ kimi ərimək” kimi yüzlərlə atalar sözünün bu gün də türkcədə işlənməkdə olduğu, habelə Sumerlərdəki Ay tanrısı simgəsi olan “Yarımay”ın indiki türk bayrağında saxlanması və b. örnək faktlar da sıradakı dəlillər olaraq diqqətə çatdırılır**.** [Kazımov: 2017, s.94-95].

Sumer xalqını “tarixdən yoxa çıxan” xalq, sumer dilini də dünyaya düşmüş yeganə dil saymağı şox sadəlöhv elmi görüş hesab edən prof. Q.Kazımov bildirir ki, sumer dili türk protodilinin (*öntürkcə*nin –X.İ.) parçalanmasından yaranmış dillərdən biri idi [Kazımov: 2017, s.72].

Sumerləri türklükdən ayrı göstərməyə çalışan çabalar sırasında sumer mətnlərinin bir sıra hallarda yanlış oxunması da vardır ki, bu da həmin mətnlərin anlamının təhrifinə gətirir. Görkəmli Azərbaycan tarixçisi, şərqşünas, mixi yazılar üzrə uzman Yusif Yusifov mixi yazıların oxunması barədə çətinlikləri gözə alaraq yazırdı: “Davamı müasir dillərdə təmsil olunmuş və mixi işarələrlə yazılmış qədim dillər (akkad sami dili, het hind-Avropa dili, qədim fars dili) müəyyən müşküllüyə baxmayaraq, oxundu və başa düşüldü. Lakin şumer və müasir dillərdə davamı (qohumluğu) olmayan, yaxud müəyyən edilməyən başqa dillərin mixi yazı növü əsasında oxunulub dərk edilməsi bir çox hallarda şərti xüsusiyyət daşıyır. Şumer mətnlərində işlənmiş mixi işarələrin bir çoxu başqa mənada da oxunula bilər. Təəssüf ki, hələ belə bir vacib araşdırma aparılmamışdır. Bəlkə bu istiqamətdə aparılan tədqiqatlar qədim mixi yazılı dillərin müasir dillərlə qohumluğunu bildirən yeni mühakimələr ortaya çıxara bilərdi” [Kazımov: 2017, s.92-93]**.** Son dönəmlərdə bir sıra araşdırmaçıların şumer mətnlərinin oxunmasına yenilikçi yanaşmaları, ortaya qoyduqları yeni oxunuş örnəkləri də Y.Yusifovun təxminlərinə haqq qazandırmaqdadır.

Sumerlərin türklüyü ilə bağlı prof. E.Əlibəyzadədən iqtibas gətirərək onunla həmfikir olduğunu bildirən prof. Q.Kazımov xatırladır: “Təkcə “Bilqamıs” dastanında özünü göstərən

başqa mənəvi keyfiyyətlər bir yana, üç mühüm amil –dil, el–dövlət (Uruk), inam (Tənqri/ Tanrı) şumer və müasir türk xalqlarının bir kökə bağlı olduğu fikrini söyləməyə əsas verir. Belə bir səsləşməni, 5 min illik bir vaxtı, məsafəni keçib gələn və dəyişməyən üç mühüm mənəvi amili dünya xalqlarının heç birində tapmaq mümkün deyil" [Əlibəyzadə: 1998, s.76, Kazımov: 2017, s.83].

İndi isə sumerlərlə bağlı prof. V.İ.Avdiyevin arxeoloji dəlillərə dayanan qeydlərinə diqqət yetirək: "Öz xarici görünüşlərinə və dillərinə görə sami xalqlarından kəskin fərqlənən şumerlər bölgəyə gəldikləri dönəmdə samilər İkiçayarasının orta və quzey hissəsində, habelə İkiçayarasının batı və batı-güney yönlərindəki ölkələrdə yaşayırdılar. Aydındır ki, şumerlər yad bir əhali idi: onlar şərq dağlarından enərək, tədricən Mesopotamiyanın güneyində yerləşdilər. Burada şumerlər ən son arxeoloji kəşflər sayəsində mədəniyyəti bizə məlum olan yerli əhali ilə qarşılaşdılar." [Авдиев: 1953, s.21]

Göründüyü kimi, burada da prof. V.İ. Avdiyev şumerlərin türklüyünə işarə edir. Belə ki Şərq dağlarından enib tədricən bölgəyə gələn və dil özəlliklərinə görə dilləri iltisaqi olan qədim xalqlar sırasında əsasən türklərdir.

Rusiya tarixçisi Anuar Qaliyevin açıqlamasına görə, onun tələbəlik illərində Moskvada tarix fakültələrində keçilən V.İ.Avdiyevə məxsus dərslikdə [https://www.youtube.com/watch ?v=sb0BvGJ8oi4, istinad tarixi: 11.06.2022]_də şumerlərin türk olduğu açıq-aşkar yazılmışdı. O, bu yanaşma ilə bütöv bir tarixçi nəslinin yetişdiyini də bildirir. Anuar Qaliyev bu mövzuda başqa bir qaynaq (kitab) da göstərir. Müəllifi K.B.Keram olan həmin kitabdakı ifadə belədir: "Şumerlərin dili qədim türk (ümumi türk) dilinə bənzəyir" [Керам: 2015, c.1].

Görkəmli ingilis alimi Qordon Çayld yazır: "Zaqrın (*Zaqros* –X.İ.) qərbindəki dağlıq bölgələrdə antik dövrdə nə semit, nə də şumer olmayan və açıq dəri ilə ikincilərdən fərqlənən insanlar yaşayırdı. Smit (Şumer mixi yazılarının ilkin bilicilərindən, ingilis arxeoloqu Corc Smit – X.İ.) onları subarlar adlandırır... Ola bilsin ki, onlara qohum olan tayfalar bir vaxtlar Şumeri ələ keçiriblər..." [Чайлд: 1956, c.38-39].

Bu açıqlamaya şərh verməzdən öncə *subar* sözünün anlamına göz yetirək: bu sözün kökündə duran ***sub*** sözü *su* (və ya *çay*) sözü ilə eyni anlamda qədim türk sözlüyündə yer alır [Древнетюркский словарь: 1969, c.512]. Yəni: ***sub – su. Subar= Sub+ar= Su+ar.*** (Su tayfasının igidləri-ərləri, ya da Su (Bütündünya Daşqını) ilə gələn ərlər.)

E.ö. III minilliyin sonunda mixi yazılarda Urmiya gölünün cənubunda "Su adamların ölkəsi" haqda da danışılır. *Su tayfası* — tarixi Azərbaycan ərazisində də mövcud olmuş ilkin etno-siyasi birliklərdən biri sayılır... [Azərbaycan tarixi, I: 2014, s.73-74; Ağasıoğlu, III: 2014, s.120-121].

Qordon Çaylda görə, sumerlər subarlara (türk – su tayfasına) qohum tayfa sayılır, başqa sözlə türkdürlər.

Türklərin Ön Asiyada öncüllüyünə şahidlik edən bəlgələrdən biri də Bibliya (İncil) xəritəsində Aralıq dənizinin adının türkcə – *Ulu dəniz* olmasıdır [Şəkil 2].

S.Kramerin köməkçisi, ünlü sumeroloq Müəzzez İlmiyə Çığ türklər ilə sumerlilər (burada *"Sumer"* ölkə adı kimi keçir –X.İ.) arasındakı mədəniyyət, dil bağlantılarını bir araya gətirərək "Sumerlilər Türklərin bir qoludur" deyir. M.İ.Çığın ilk dəlili ortaq adlardır: Altay Dağlarının ən yüksək nöqtəsinin adı Üç Sumer Dağı. "Durun" türkcə də, həm də sumercə də "yurd" deməkdir. Sumercə "kur" (Azərbaycanca: "gor" – X.İ.), türkcə də "kurqan" yeraltı demək. Sumercə "dingir", türkcə isə "tengir" – tanrı deməkdir. Saylar da türk-sumer bağlantısına şahidlik edir... Sumerlilərdə 7 dağ aşmak, 7 kapı keçmək, 7 qat göy, 7 tanrısal işıq, 7 ağaç,

bu sayın önəmini bəlgələyir. M.İ.Çığ Tufan Əfsanəsi, Xıdırəlləz, Min bir Gecə Nağılları, Ergenekon, Yaz və Yenidən Doğuluş Bayramı, Dədə Qorqud masalları, Cem Ayinləri ilə də Türk-Sumer mədəniyyət yaxınlığını gözlər önünə sərir [Çığ: 22.04.2020, arxa üz sayfa].

Sumerdə Türklərdə olduğu kimi, hökmdarlara Tanrı tərəfindən qut verilməklə hakimiyyəti qanuniləşdirilirdi. Həmçinin Sumerlərdə Kuta sözü türklərin *kut//qut* sözü ilə eyni anlam daşıyır [Siyablı: 2021, s.155].

Altay Dağlarının ən yüksək nöqtəsinin adının Üç Sumer Dağı olduğu bilgisinə dayanaraq, Sumer sözünün türk sözlüyünə əsaslanan bizim tərəfdən açıqlaması: Sumer=Sum+er kimidir. *Er* (ər, ar) türk sözü –savaşçı, igid – olduğu da Radlovun türk sözlüyündə yer aldığı bilinməkdədir [Радлов, т. I, ч. II: 1893, c.1456].

Yeni, özəl araşdırmalarımız sonucunda *sum* sözünün də ayrıca, özgür anlamda işləndiyi (tayfa adlarından doğa biləcək) toponimləri də aşkar etdik: *Sum+qayıt* (Azərbaycanda çay və şəhər adı), *Сум+ская область* (Ukraynadadır, ruscadan çevirdikdə, anlamı: Sum vilayəti, Sum eli – X.İ.). Beləliklə: *Sumer= Sum +er // Sum əri =Sum döyüşçüsü =Sum igidi* anlamında olduğu tərəfimizdən irəli sürülür. Başqa sözlə, obyektiv elmi yanaşma sonucunda ***Sum*** sözünün tayfa adı olduğu anlaşılır. Aydındır ki, Sum tayfa adı bir sıra hallarda şəxs adı kimi də işlənə bilər (məsələn: *Sum, qayıt! = Sumqayıt*). Necə ki xalqımız azər və xəzər boyadlarının tarixdəki rolu ilə qürur duyduğu üçün uşaqlarına Azər, Xəzər... kimi adlar verirlər.

***Sum*** sözü ayrıca olaraq ilk dəfə "Kitabi-Dədə Qorqud"da aşağıdakı mətndə keçməkdədir:

"Yedi kişi ilə qurulurdı mənim yayım

Qayın talı yeləgümdən **sum** altunlu mənim oxım!" ["Kitabi-Dədə Qorqud": 1978, s.111].

Dilçilər ***sum*** sözünü müxtəlif cür yozmışlar: *Sum* — dolu, tamam, içi dolu, bütün külçə. *Sum qızıl* — içi və xarici qızıl, külçə qızıl. Sözün ikinci yozumunda onun *xalis, tamam* mənaları bildirdiyi göstərilir [https://obastan.com/sum/571170/?l=az, istinad tarixi: 17.08.2022].

***Sum*** — bəzi türk xalqları arasında pul vahidinin də tarixi adıdır. Ləhcələrdən bəzilərində ***som*** şəklinə keçmişdir [İsmayıl: 2021, s.350-351].

Altay Dağlarının ən yüksək hissəsində yerləşən üç zirvənin adı qutsal Üç Sumer Dağı hal-hazırda *Beluxa* (rusca) adlansa da, bu adlar Altay Elində yanaşı işlənir. Üç Sumer həm də simgə, qutsal nişan olaraq da sevilərək yaşadılır: Altay Respublikasında dövlət nəşriyyatı "Üç Sumer –Beluxa" adlanır. Orada Ağ Sumer qutsal dağ zirvəsi var və "Ağ Sumer" adlı yerli dini qurum fəaliyyət göstərir.

**"Şumer**lya" isə Çuvaş Elində şəhərdir [İsmayıl: 2021, s.347-348].

Göründüyü kimi, nüfuzlu dillər sırasında hal-hazırda təkcə rus dilində *şumer* kimi yazılan *sumer* sözü *sum* etnonimi vasitəsilə tamamilə türklərə bağlı bir anlayışdır. (Yeri gəlmişkən. ilk rus assiroloqu, şərqşünas M.V.Nikolski bu sözü *Sumer* olaraq yazırdı.)

*"Sumerlilərdə Tufan. Tufanda Türklər"* adlı kitabında sumeroloq Müəzzez İlmiyə Çığ Orta Asiya kökənli Tufan əfsanəsinin izini hərtərəfli araşdırmış, bu əfsanənin sumerlilərə təsirini də şərh etmişdir.

Əslində, geoloji, arxeoloji axtarışların son nəticələri bu mifoloji yaddaşın gerçəklikdə baş vermiş Tufan olayından doğduğunu göstərməkdədir. Bu əsər də Sumer-Orta Asiya türk bağlarının bəzi yönlərinə aydınlıq gətirmişdir.

*İndi isə Sumer kökənli bir sıra şəhər və tarixi şəxs adlarına diqqət yetirərək, örnək üçün onlardan bəzilərinin etnik bağlarını açıqlayaq:*

Kiş, Aqa, Kuti, Mamet, Ur, Uruk, Laqaş, Akşak, Abram, Saray və b.

**Kiş** (Şumerdə şəhər-dövlət) – bu söz ingilis vikipediyasında **Kish-Kishlak** kimi də vur-

ğulanaraq kökənin **qış** sözü olduğu xatırladılır. Sumeroloq M.İ.Çığ da **Kiş** şəhər-dövlət adının **qış** anlamından yarandığını bildirir [Çığ: 2012, s.121].

Ümumilikdə, ***Kiş, Kişa, Kişinyov*** *kimi sözlərin kökəni türkcə –* ***Kiş//Qış*** *sözündəndir* [İsmayıl: 2021, s.124].

Kramer yazır: **"Qış** və **Yay** arasında mübahisə haqqında və son vaxtlara qədər məlum olmayan əfsanə yazılmış səkkiz sütunlu lövhəciyə də rast gəldim." [Kramer: 2009, s.88].

M.İ.Çığın araşdırmalarında bu olay daha açıq verilmişdir: **"Yay"** cütçülüyü, əkinçiliyi, **"Kiş"** (Qış) isə heyvandarlığı//heyvançılığı təmsil edir. O baxımdan **"Qış"** tanrısına üstünlük verənlər həyatda heyvançılığı üstün sayıb, iş yönü olaraq onu seçənlərdir. İnanc üzərindən bu yönü özünə qutsal sayanlar bu tanrı adını özlərinə uyğun şəhər, kənd, çaylara və önəmli kəslərə (çarlara, alimlərə, şairlərə və b.) da verərək nəsildən-nəslə yaşadırlar. Göründüyü kimi, Sumerdən gələn Kiş adının Qış tanrısının (əslində, Qış fəslinin obrazının) adından, başqa sözlə, *qış* sözündən yaranması tək doğru izah kimi görünür.

**Aqa//Ağa** – "Bilqamıs və Aqa//Ağa" epik poemasına görə, Kiş hökmdarının adı da türkcə: Aqa//Ağa imiş **[**https://ru.wikipedia.org/wiki/%D0%93%D0%B8%D0%BB%D1%8C%D0%B3%D0%B0%D0%BC%D0%B5%D1%88, istinad tarixi: 25.06. 2022].

**Mamet, Mami** – Sumerdə məhsuldarlıq və artım tanrısı [Bilqamıs dastanı: 1999, s.90].

***Mamet*** – quzey başqırdlarda, ğəynə boyuna bağlı soy budağı (etnonim) **[**İsmayıl: 2021, s.344] olduğu halda, qədim türk sözü ***mama I.*** (qadın [Caferoğlu: 1968, s.127], doğuran - artıran); mama II**. (**xırman sırasında axımın (cərəyanın) mərkəzində bir *öküz/buğa)* [Древнетюркский словарь: 1969, с.335] sözünün anlamı ilə də uyğunluq təşkil edir. Ümumiləşdirdikdə: *məhsuldar, doğuran – artıran* deməkdir.

**Laqaş** (Sumerdə şəhər adı) – akademik tarixdə anlamı açıqlana bilməyən bu ad qədim türk sözü ***Laqş*** sözündən törənmiş ola bilər [Древнетюркский словарь: 1969, с.332].

Qədim türkcədə işlənən "neçuq" [Древнетюркский словарь: 1969, с.357] sözünün forması göstərir ki, o, "nə üçün" sözünün başqa ləhcəyə çevrilməsindən yaranıb. Laqaş da kökən və formaca *Laqş* sözü ilə cizi ləhcə dəyişiyi ilə eyni söz kimi görünməkdədir. *Laqş* sözü qədim türkcədə "buğda unu" deməkdir. O zamanlar şumerlərin Laqaş şəhərində də kənd təsərrüfatı dirçəldilərək, bu sahə birinci sırada olub – o üzdən də insanların ən əsas yemək məhsulu, hər yetişəndə onların sevincinə səbəb olan, insanların bayramına çevrilən buğda məhsulu anlamında olan söz ad olaraq o şəhərə verilə bilərdi... Şumer şəhəri Laqaşa e.ö. 2260-cı illərdə kifayət qədər özgür və şəhərini çiçəkləndirən çar Ur-Baba başqanlıq edirdi **[**https://coollib.com/ b/558822-seton-lloyd-arheologiya-mesopotamii/read**,** istinad tarixi: 20.08.2022].

Göründüyü kimi, həm Laqaş, həm də bu çarın adı öntürkcədir.

**Akşak (**Sumerdə şəhər adı) – türk sözlüyü ilə belə açıla bilər: Akşak= Ak+şak= Ağ+sak=Ağ+saq → Ağ (Işıq)+saq=İşıqlı saq(lar). **Saq** isə –diqqətli, həssas, ehtiyatlı deməkdir [Древнетюркский словарь: 1969, с.495-496].

**Ur** (şəhər adı) – türk dillərində çoxanlamlı sözdür. **Ur**un bir anlamı da uca, dik deməkdir. "Kitabi-Dədə Qorqud"da da bu anlamda dəfələrlə işlənib ["Kitabi-Dədə Qorqud": 1978, s.20, 34].

**Uruk** (Sumer) **– Uruğ** (uyğur): nəsil, soy; toxum, əkin [Caferoğlu: 1968, s.266-267].

**Uruk** (Sumer) **– Uruk** (uyğur): ip, kəndir, kanat (bağ) anlamı da daşıyıb [Caferoğlu: 1968, s.267; Древнетюркский словарь: 1969, с.616].

Toparladıqda: Uruk/Uruq (şəhər adı) – müəyyən bir tayfaya bağlı olanların yurdu anlamına gələ bilər.

**Abram** və **Saray** – S.Kramerin yardımçısı olaraq çalışmış sumeroloq Müəzzez İlmiye Çıg da həm Toraya, həm də mixi yazılara [həmçinin: Mari mətnləri (e.ö. 2000-1750-ci illər) və Kumran mağaralarında bulunan ceyran dərisi üzərindəki yazıya (e.ö. 50 – e. 50-ci illər)] dayanaraq, Tanrı elçisi İbrahimin əsl adının **Abram**, Saranın isə **Saray** olduğunu təsdiq edir [Çığ: Şubat 2006, s.81-82, 88-90].

Bu faktı "Tora" (Tövrat) da təsdiq edir. Araşdırmalarımız göstərir ki, Abram və Saray türk sözləridir. – Rus alimi-etnoqraf, bəstəkar, altayların peşəkar musiqisinin banisi, maarifçi *Andrey Viktoroviç Anoxin* (1869-1931) yazır: "...***Abra*** altaylılara görə, Erlik dünyasındakı Pay Təngis (yəni "Bay dəniz") adlı bir dənizdə yaşayırdı... **Abra**nın insanların hamisi və qoruyucu ruhu olduğuna da inanılırdı. Bu ruhlara altaylılar "lös" deyirdilər. "Atam, sahibim, ay *Abram* " deyə dua edirdilər..." [Ögəl: 2006, s.436].

Göründüyü kimi,Altay türklərinin mifologiyasındakı tanrı adı ilə təktanrılı dinlər atası Abramın adı bir kökdəndir. Bu da xalqlar atası, Tanrı elçisi Abramın türk oğlu olmasının sıradakı ən önəmli dəlillərindəndir.

**Saray** – çox zaman Sara kimi işlənən bu sözün əsli sumer mixi yazılarında və Torada *Saraydır* – özbəklərin saray tayfasının adındandır, bizcə, *sar* feilindən yaranmış, (dörd yandan) sarılı, (hər yöndən) qorunan deməkdir [İsmayıl: 2021, s.26, 405-411, 418-419].

**Aran** – Tanrı elçisi Abramın qardaşının adı. Aran sözü **"Ar"**ların (**ər**lərin) **yurdu** anlamındadır. ***Ar*** da, həmçinin ***Aran*** da türklərə məxsus etnonim [İsmayıl: 2021, s.369-370, 400], ***Aran (Ərən)*** şəklində yazılışında isə – igid, qəhrəman anlamında antroponimdir [Caferoğlu: 1968, s.44], xristian salnamələrində *Eran* kimi yazılışı da var [Cəfərsoy: 2014, s.8].

Ərəb səyyahları əl-İstəxri, ibn-Hövqəl, əl-Müqəddəsi yazırlar ki, Aran dilində vulkana *atma,* qoz ağacına *koz,* tuta *tut*, əncirə *incir,* fındığa *bunduk* və s. deyilir [Мамедов: 1993, с. 110-112; Cəfərsoy: 2014, s.40]. Eradan öncə VIII əsrdə yazılmış mixiyazılı abidələrdə *göy, yer, su, atlı* sözləri vardır. Həmin sözlər Aran sözləridir [Шопен: 1866, с.143, 384; Cəfərsoy: 2014, s.40]. Abram elçinin doğulduğu Ur şəhərində aparılmış arxeolji qazıntılar nəticəsində tapılmış Sumer dönəminə aid qəbiristanlıqdakı cəsəd qalıqlarının DNK göstəriciləri ilə türkmənlərin göstəriciləri eyni gəlmişdir. Bu fakt bir daha Ur şəhərindən olan Abramın atası Terah, atalığı-əmisi Azər, qardaşı Aran, ögey bacısı və xatunu Saray, Saraydan doğulan oğlu İsak və b. tanınmış tarixi şəxsiyyətlərin də qarapapaq türkü olduğunu sübut etməkdədir.Rus arxeoloq Nikolski bildirir: "Anova və Ur şəhərlərində tapılan cəsədlər üzərində aparılan DNT testləri şumerlərin Orta Asiyadan olan türklər olduğunu göstərdi". [https://www.kenanyelken.com/sumerler-turk-mudur, istinad tarixi: 03.07.2021].

O, sumerlərin türk olduqlarını açıq şəkildə söyləyərək başqa dəlillər də ortaya qoymuşdur: "Türkmənistan daxilində Anova (Anov) kurqanlarında aşkarlanan arxeoloji tapıntılar Sumer Ur krallarının məzarlarından tapılanlarla eynidir." Neolit dövrünün ən böyük araşdırıcılarından biri, arxeoloq və tarixçi Qordon Çayld (Gordon Child) və ünlü Sumeroloq Leonard W. King öz əsərlərində Anova və Urdakı tapıntıların eyni insanlara (türkmənlərə) aid olduğunu yazmışlar. Türk araşdırmaçısı Kenan Yelkenə görə, "Sumerlərin Orta Asiyadan gəldiyini sübut edən ən vacib bəlgə "Zodiac Calde" ("Xaldey Zodiak") lövhəsidir [Şəkil 3]. "Zodiak Kalde"dəki ulduz qruplarının şəkilləri, aralarındakı məsafələr və parlaqlığı öyrənilərkən bu görüntünün yalnız Xəzər dənizinin şərqindəki 40-46 enliklərdə əldə oluna biləcəyi elmi şəkildə bəlli olmuşdur. Bu bölgə Türkmənistandır.

Uzmanlar tərəfindən aydınlaşdırıldığı kimi, sumerlər ilk dəfə yazını yaratdıqda, e.ö. 3200-cü illər idi: Tarix də o zamandan başlayır [https://www.kenanyelken.com/ sumerler-turk-mudur, istinad tarixi: 03.07.2021].

Qazaxıstan alimlərinin son arxeoloji araşdırmalarına görə, Turqay bölgəsində Sumer mədəniyyətinə bağlı tapıntılar üzə çıxmışdır: "Şumerlər Turqay ərazisində yaşayırdılar. Daha sonra Mesapotamiyaya köçdülər. Təxminən 6 - 8 min il əvvəl şumerlər məskunlaşmışdılar. Əkinçiliklə məşğul olurdular, suvarma kanalları çəkirdilər. Və bu gün də bu ərazidə bütün bunları təsdiqləyən tapıntılar var." [https: //www.youtube.com/watch?v=PWM8_5sdm1Y, istinad tarixi: 23.08.2022].

Qazaxıstan ərazisində qədim zamanlarda türklərin Kengir adlı paytaxtı olmuş, hal-hazırda isə Karaqanda Vilayətində kengir (qazaxca: *Кеңгір*) adlı qızıl mədəni, su anbarı, çay, kənd adları, sarı kəngir, kingir-tura və b. coğrafi adlar da vardır. Xatırladaq ki, sumerlər öz ölkələrini "Kengir" [ki-en-gi (-r)] adlandırırdılar [İsmayıl: 2021, s.416; Şəkil 1]. Qazax xalqının sonralar formalaşdığını, tarixi köçləri və sumerlərlə bağlı əldə olan bütün dəlilləri nəzərə aldıqda aydın olur ki, sumerlər qarapapaq türklərinin, kəngərlərin varisləridir.

Təqdim olunan dəlillərdən göründüyü kimi, sumerlər tarixi, dilçilik, mifoloji, arxeoloji, antropoloji, genoloji və b. yönlərdən qədim türk xalqlarının bir boyu kimi görünməkdədir.




*Şəkil 1*




© Библија Тәрҹүмә Институту

*Şəkil 2*



*Şəkil 3*

## ƏDƏBİYYAT


**1.** Ağasıoğlu. F. Azərbaycan türklərinin islamaqədər tarixi. (Doqquz bitik); III bitik: Azərbaycanda qurulan qədim dövlətlər., Bakı, 2014, "Ağrıdağ" nəşriyyatı –512 səh.
**2.** Ağasıoğlu. F. Azərbaycan türklərinin islamaqədər tarixi. (Doqquz bitik); I bitik: Tarixi qaynaqlar., Bakı, 2014, "Ağrıdağ" nəşriyyatı –364 səh.
**3.** Alfabenin Menşei en eski Türk yazısıdır. Ahmet Cevat, Marifet Matbaası, 1933: İstanbul, —71 sayfa
**4.** Azərbaycan tarixi. I cild. (Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə). Dərslik. Bakı. "Apostrof" nəşriyyatı. 2014 –720 səh.
**5.** Azərtürk Tariyel. Mixi yazıların mənşəyi, kimindir onlar?, Sietl (ABŞ), 2002. –116 səh.
**6.** Bilqamıs dastanı. "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, Bakı, 1999, 92 səh.
**7.** Caferoğlu Ahmed. Eski Uygur Türkçesi Sözlüğü., Türk Dil Kurumu Yayınları (№260), 1968, (XV+308) sayfa
**8.** Cəfərov Əsədulla – İnsanlığın səhəri, Bakı, Azərnəşr, 1994, 80 səh.
**9.** Cəfərsoy İlhami. İber və H'Ay folklorunda türk mifik təfəkkürünün izləri. "Xəzər Universiteti" nəşriyyatı, Bakı, 2014, 224 səh.
**10.** Çığ Muazzez İlmiye. "Sumerlilərdə Tufan. Tufanda Türklər", 2012, Kaynak Yayınları, 168 s.
**11.** Çığ Muazzez İlmiye. İbrahim Peygamber Sumer Yazılarına ve Arkeolojik Buluntulara Göre., Beşinci Basım: Şubat 2006, İstanbul: Kaynak Yayınları: 227, Baskı: Yön Matbaacılık, ISBN: 975-343-204-6, 183 sayfa.
**12.** Çığ Muazzez İlmiye. Sümerliler Türklerin Bir Koludur: Sümer-Türk Kültür Bağları. Yayınevi: Kaynak Yayınları; ISBN: 9786058110779, İstanbul, 22.04.2020 – 280 sayfa.
**13.** Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi (İslamaqədərki dövr). Bakı: Gənclik, 1998, 524 s.
**14.** Əlibəyzadə Elməddin. Azərbaycan dilinin tarixi., I c., Azərbaycan Tərcümə Mərkəzi, Bakı, 2007. –660 səh.
**15.** https://bigenc.ru/linguistics/text/2098073 [istinad tarixi: 20.08.2022] – Сичинава Д. В. Ко рку. БРЭ, 2004.
**16.** https://coollib.com/b/558822-seton-lloyd-arheologiya-mesopotamii/read [istinad tarixi: 20.08.2022] — Сетон Ллойд. Археология Месопотамии. Главная редакция восточной литературы издательства «Наука», Москва, 1984.
**17.** https://obastan.com/sum/571170/?l=az [istinad tarixi: 17.08.2022] — Sum. Azərbaycan dilinin dialektoloji lüğəti.
**18.** https://www.kenanyelken.com/sumerler-turk-mudur [istinad tarixi: 03.07.2021] — Yelken Kenan. Sümerler bir ön Türk halkı mıydı?..
**19.** "Hürriyet" gazetesi, İstanbul, 1 Nisan 1993.
**20.** İsmayıl Xaqani. Öntarix olayları ilkin qaynaqlarda., Bakı: "Müəllim" nəşriyyatı, 2021. 462 səh.
**21.** Kazımov Qəzənfər. Azərbaycan dilinin tarixi. Ən qədim dövrlərdən XIII əsrə qədər. Bakı, TEAS Press Nəşriyyat Evi, 2017, 680 səh.
**22.** "Kitabi-Dədə Qorqud". "Gənclik". Bakı. 1978, 184 səh.
**23.** Kramer. Semuel N. Tarix şumerdən başlanır. ISBN 5-02-016729-0, Bakı, 2009, 280 səh.
**24.** Nüvədili Tariyel Vəli. Əcdad., Seattle (ABŞ), 1997, – 472 səh.
**25.** Ögəl Bahəddin. Türk mifologiyası. I cild. Bakı, «MBM», 2006, –626 səh., səh.436; Анохин А.В. Материалы. "Ülkü" dergisi, 1943, s.25
**26.** Авдиев. В.И. (Проф.). История Древнего Востока (Лекции...), Москва, 1953, 88 стр.
**27.** Азертюрк Тариел. Генезис тюрка и тюркского языка (на основе клинописи), в двух книгах, Баку: Издательство "AFPoliqrAF", 2019, I Том – 738 стр. + II Том – 739 стр. =1477 стр.

**28.** БСЭ, 26-й том, Москва, 1977

**29.** БСЭ, 29-й том, Москва, 1978

**30.** Древнетюркский словарь. Изд-во «Наука», Ленинградское отделение, 1969 – (XXXIX+678) стр.

**31.** «История Азербайджана с древнейших времён до 70-х гг. XIX в.». Под ред. проф. С.Алиярлы, Баку, БГУ: Издательство «Çıraq», 2009 — 784 стр.

**32.** Керам Курт Вальтер. Боги, гробницы, ученые /пер. А. С. Варшавский. – Москва: Издательство: Амфора, 2015 – 510 стр.

**33.** Мамедов Т.М. Кавказская Албания в IV-VII вв. Баку, Маариф, 1993, 216 стр.

**34.** Марр Николай Яковлевич. О лингвистической поездке в Восточное Средиземноморье. ОГИЗ, Государственное Социально-Экономическое Издательство, Москва-Ленинград, 1934 – 134 стр. с.55-56

**35.** Мелиоранский П.М. – Об орхонских и енисейских надгробных памятниках с надписями, «Журнал Министерства народного просвещения», т. ССС XVII, Спб., 1898, июнь

**36.** Новгородова Э. Путь на гору солнца. «Вокруг света» (Научно-художественный ежемесячный журнал ЦК ВЛКСМ), изд-во: Молодая гвардия, Москва, 1988, №11.

**37.** Чайлд Гордон. Древнейший Восток в свете новых раскопок. Перевод с англ. М.Б. Граковой-Свиридовой. Предисловие и редакция проф. В.И. Авдиева., Москва: Издательство иностранной литературы, 1956 г., 384 стр., илл., 20 л. илл.

**Şərti işarə və izahlar:**

a — qədim türk sözlüyündə **ə** səsinə bənzər səs

k — kolxoz, komanda, kut sözlərindəki **k** səsi

*ң* — qazaxca *"sağır nun"* səsi

e.ö. — eramızdan öncə

БСЭ — Большая Советская Энциклопедия

БГУ — Бакинский Государственный Университет

БРЭ — Большая Российская Энциклопедия

ОГИЗ — Объединение государственных книжно-журнальных издательств

**Khagani N. ISMAYIL**

**THE SUMERIANS ARE ONE OF THE ANCIENT PROTO-TURKIC PEOPLES**

**SUMMARY**

The article examines the ethnic identity of the Sumerians, and for the first time in historiography, various types of scientific evidence are presented that substantiate their existence as an ancient proto-Turkic people. The author, using possible historical, linguistic, mythological, archaeological, anthropological, genealogical and other results of various fields of science, for that historical period of the distant past, which is visible or shown in the twilight, trying to clarify with comprehensive scientific data from all directions, presents new scientific results for historiography, fully confirmed by sources. It can be seen from the study that while the first Sumerologists, following the information in the Gospel, examining the Sumerian texts found through searches and archaeological excavations, stated that these cuneiform texts were written in a language close to the Proto-Turkic languages, and the speakers of this language belonged to Turan region. Later, this issue was politicized, and was directed in the wrong direction by the rabbi of Bucharest and his followers, bringing with it darkness and wrong conclusions for the world academic science on this issue. In the article, for the first time for historiography, the roots of a number of Sumerian toponyms, anthroponyms, such as Sumer (Sumer), Kish, Ab-

ram (Ibrahim), Sarai (Sarah), Aran and others, are revealed scientifically, in compliance with the rules of linguistics, the etymology of words is explained and it is proved that these words are of Turkic origin. With the evidence presented here, the author not only scientifically refutes the orderly theory that "the Sumerian people are a people whose ethnic origin is unknown, lost in history," but also marks geographical names and ethnonyms directly related to Sumer in the historical Turkic regions. He also comprehensively explains the question of the origin of the Sumerians and shows the ethnicity of this people to the Turkic peoples. When revealing his position from the point of view of linguistic data, the researcher uses words that have entered the scientific circulation by Sumerologists. However, the article emphasizes the need to study the Proto-Turkic languages among the ancient languages for a more correct interpretation of the Sumerian texts and a successful presentation of the meaning of the texts in modern languages. Because, according to the author, if today's Turkic-speaking Turkologist himself does not know the historical stages of the words he studies, if he does not know the Proto-Turkic languages, then he cannot be aware that any word he mentioned in ancient languages is taken or not from proto-Turkic languages, and naturally, he cannot perceive either the ethnic landscape of Western Asia (including Sumer) of that period, or the essence of the events taking place there. To help solve such problems as much as possible, the author of the article considers it necessary to improve the Sumerian dictionary and the Proto-Turkic dictionary by specialists.

**Keywords:** *Sumer, Sum, Altai, Turan, Karapapag, Turkic, Proto-Turkic, Tora, Jewish, Ur, Uruk, Kut, Kish, Abra, Abram, Ibrahim, Sarai, Sara, Aran.*

**Хагани Н. ИСМАИЛ**

**ШУМЕРЫ – ОДИН ИЗ ДРЕВНИХ ПРОТОТЮРКСКИХ НАРОДОВ**

**РЕЗЮМЕ**

В статье рассматривается этническая идентичность шумеров, и впервые в историографии представлены различные виды научных доказательств, обосновывающих их существование как древнего прототюркского народа. Автор используя возможные исторические, лингвистические, мифологические, археологические, антропологические, генеалогические и др. результаты различных областей науки, за тот исторический период далекого прошлого, который виден или показан в полумраке, стремясь внести ясность исчерпывающими научными данными со всех направлений, представляет новые научные результаты для историографии, полностью подтвержденные источниками. Из исследования видно, что в то время как первые шумерологи, следуя сведениям в «Евангелии», исследовав шумерские тексты, найденные благодаря поискам и археологическим раскопкам, констатировали, что эти клинописные тексты написаны на языке, близком к прототюркским языкам, и носители этого языка принадлежали Туранскому региону. Позже этот вопрос был политизирован, и раввином Бухареста и его последователями был направлен не в ту сторону, неся с собой мрак и неправильные выводы для мировой академической науки по этому вопросу. В статье впервые для историографии раскрывается корни ряд шумерских топонимов, антропонимов, таких как Шумер (Сумер), Киш, Абрам (Ибрагим), Сарай (Сара), Аран и другие, научным путем, с соблюдением правил языкознания, объясняется этимология слов и доказывается, что эти слова имеют тюркское происхождение. Приведенными здесь доказательствами автор не только научно опровергает упорядоченную теорию, утверждающую, что «шумерский народ есть народ, этническое происхождение которого неизвестно, затеряно в истории», но и отмечает в исторических тюркских регионах географические названия и этнонимы непосредственно связанные с Шумером. Он также всесторонне разъясняет вопрос о происхождении шумеров и показывает этническую принадлежность этого народа к тюркским народам. Исследователь при раскрытии своей позиции с точки зрения лингвистических данных использует слова, вошедшие в научный оборот шумерологами. Однако в ста-

тье подчеркивается необходимость изучения пратюркских языков среди древних языков для более правильной интерпретации шумерских текстов и успешного представления смысла текстов на современных языках. Потому что, по мнению автора, если сегодняшний тюркоязычный тюрколог сам не знает исторических стадий исследуемых им слов, если он не знает пратюркских языков, то он не может быть в курсе того, что какое-либо упомянутое им слово на древних языках взято или нет из прототюркских языков, и естественно, он не может воспринимать ни этнического ландшафта Передней Азии (в т.ч. и Шумера) того периода, и ни сути происходящих там событий. Чтобы максимально помочь решению таких задач, автор статьи считает необходимым усовершенствовать шумерский словарь и пратюркский словарь специалистами.

**Ключевые слова:** *Шумер, Сум, Алтай, Туран, карапапаг, тюрк, прототюрк, Тора, еврей, Ур, Урук, Кут, Киш, Абра, Абрам, Ибрагим, Сарай, Сара, Аран.*